

> ***Azərbaycan Respublikasının Prezidenti seçilməyimdə mənə göstərilmiş bu böyük etimada görə, Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm. Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.***
>
> ***Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.***
>
> **Prezident İlham ƏLİYEVİN**
> **andiçmə mərasimindəki nitqindən**
>
> **31 oktyabr 2003-cü il**

# *Prezident İlham ƏLİYEV:*

# Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək

***Azərbaycan xalqı dövlətçilik qarşısında misilsiz xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır. Xüsusilə, ona görə ki, ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 16 ildir etibarlı əllərdədir, dinamik inkişaf tempinə, davamlı sabitliyə nail olmuşdur, dünya birliyində söz sahibidir. Ulu öndər Heydər Əliyev "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyərkən, müdrik uzaqörənlik nümayiş etdirmişdir. Ölkəmizin dünya birliyinin layiqli üzvünə çevrilməsi yolunda atılan qətiyyətli addımlar, düşünülmüş siyasət də təsdiqləyir ki, dövlətimizin başçısı Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır.***

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı , bu gün də hər birimizin yaddaşından silinməyən 1 oktyabr 2003-cü il tarixli müraciətini bir daha xatırlatmaq istərdim. Bu müraciət təkcə ulu öndərin deyil, bütövlükdə xalqımızın Heydər Əliyevin ən layiqli varisinə olan böyük inam və ümidinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu öndər bu tarixi müraciəti ilə böyük zəhmət və uzaqgörənliklə əsasını qoyduğu siyasi kursu davam etdirə biləcək ünvanı dəqiq göstərmişdir: "...Üzümü Sizə -- həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Son 16 ildə həyata keçirilən siyasi kurs bir daha təsdiqlədi ki, müdrik şəxsiyyət Heydər Əliyevin uzaqörənliyi, onun layiqli varisi Prezident İlham Əliyevin verdiyi hər bir vədin arxasında dayanması, ölkəmizi sabitlik adasına çevirməsi, mürəkkəb və çətin şəraitlərdən alnıaçıq, üzüağ çıxması onu verdiyi vədlərə əməl edən lider kimi tanıtdı və bu seçimdə Azərbaycan cəmiyyətinin qətiyyən yanılmadığını sübut etdi. Artıq 16 ildir ki, müstəqil Azərbaycan dövlətçiliyi böyük uğurlara imza atır. Bu uğurların əsası 2003-cü ilin oktyabrından başlandı.

## *İqtisadi sıçrayış*

Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) ölkənin sosial -iqtisadi həyatında, xüsusilə, regionların inkişafı və əhalinin məşğulluğu sahəsində əsaslı dönüş yaratdı.

Dövlət proqramının əsas məqsədi regionların mövcud potensialından səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır. İlk dövlət proqramının qarşıya qoyduğu vəzifələrin uğurlu icrası ölkənin soaial-iqtisadi həyatında əsaslı dəyişikliklər yaratdı. Bundan sonra bir-birinin ardınca qəbul edilən dovlət proqramları ölkəmizin dünya birliyinə inteqrasiyası yolunda mühüm rol oynadı.

Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verdi.

Dövlət proqramlarının icra olunduğu illər, ümumilikdə son 16 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdisə, hazırda bu göstərici 45 milyard dollara çatmışdır. Bu illər ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da təxminən yarısını xarici investisiyalar təşkil edir. Onu da qeyd edək ki, həmin dövrdə Azərbaycana qoyulan sərmayələr bütün müstəqillik illərində yatırılan investisiyaların 93 faizinə bərabərdir.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Dünyanı dərin maliyyə və iqtisadi böhran bürüdüyü illərdə Prezident İlham Əliyevin düşünülmüş siyasi kursu Azərbaycanı bundan yan keçirdi. Dünya bazarlarında neftin ucuzlaşması ölkəmizin inkişaf tempini bir o qədər də zəiflədə bilmədi. Qeyri-neft sektorunun inkişafı, ölkəyə valyuta gətirən kənd təsərüfatı məhsullarının istehsalına xüsusi önəm verməsi regionların simasını dəyişmiş, əhalinin həyat səviyyəsini daha da yaxşılaşdırmışdır. Dünyanın ən nüfuzlu reytinq agentliklərinin hesabatlarında da Azərbaycanın sürətli inkişaf yolunda inamla irəliləməsi öz əksini tapmışdır.

İllər öncə siyasi liderimizin xalqa verdiyi vədlər artıq gerçəkləşib. Bu illər ərzində hər bir azərbaycanlı bunu özünün gündəlik həyatında açıq-aşkar hiss edir.

## *Ordu quruculuğu*

Hər bir dövlətin qarşısında duran əsas vəzifələrdən biri də ordu quruculuğudur. Xüsusilə, ərazisinin bir qismi işğal altında olan ölkələr üçün bu, daha prioritet vəzifədir. Məhz bu baxımdan, Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən ordu quruculuğuna xüsusi önəm verdi.

Məlum olduğu kimi, ordunun gücü, döyüş qabiliyyəti, həm də döyüş texnikaları, silah-sursatla bağlıdır. Ölkə başçısının 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin edən mühüm amillərdən biri oldu. Qısa müddətdə silah, hərbi sursat istehsalına başlanıldı. Nazirliyin istehsal etdiyi məhsulların 80 faizdən çoxu müdafiə təyinatlıdır. Silahlı Qüvvələrin balansında olan zavodlarda əsaslı təmir, yenidənqurma işləri aparıldı. Məhz bunun nəticəsidir ki, hazırda müdafiə sənayemiz 1200 adda hərbi məhsullar, silah-sursat istehsal edir. Bu məhsullar həm də xarici ölkələrdə keçirilən sərgilərdə nümayiş etdirilir. Həm ölkəmizdə, həm də xarici dövlətlərdə təşkil olunmuş hərbi sərgilərdə nümayiş etdirilən silah-sursatlarımız bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycanın güclü hərbi-sənaye kompleksi formalaşmaqdadır və ölkəmiz təkcə hərbi məhsullar istehsal etmir, həm də onun perspektivli ixracatçısına çevrilib.

Artıq Azərbaycan özünün hərbi sənaye kompleksini qurduğuna görə münaqişə və müharibə olacağı təqdirdə digər dövlətlərdən silah almayacaq. Çünki ölkəmiz öz silah təminatını ödəmək qabiliyyətindədir. Azərbaycanın silah istehsal etməsi təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. 2016-cı ilin Aprel döyüşlərində həm işğalçı Ermənistan, həm də dünya birliyi bunun şahidi oldu. Azərbaycan Ordusu dörd gün ərzində düşmənə layiqli zərbə vurdu və 25 ildən artıq işğal altında olan min hektarlarla ərazimiz azad edildi. Ardınca Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra ordumuzun nəzarəti altına keçdi. Həmin əməliyyatda, ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edildi.

Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda nümayiş etdirilən 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar ölkəmizin hərbi qüdrətini bütün dünyaya göstərdi. Hərbi paradda iştirak edən Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğunun prioritet vəzifə olduğunu bir daha diqqətə çatdırdı: "2003-cü ildən başlayaraq, bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir". Dövlətimizin başçısı bir daha bəyan etdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir.

2003-cü ildən bu günə qədər hərbi xərclərimizin 15 dəfə artması ordu quruculuğunun diqqət mərkəzində saxlanılmasından xəbər verir.

## *Uğurlu xarici siyasət kursu*

Prezident İlham Əliyevin səmərəli fəaliyyətindən söhbət açarkən, xarici siyasət kursunu xüsusi vurğulamaq lazımdır. Çünki dövlət başçısı prezidentlik fəaliyyətinin ilk günündən bu istiqamətdə çox böyük uğurlar əldə edib və bu proses bütün tempi ilə davam edir. Hər şeydən əvvəl, İlham Əliyevin xarici siyasət kursunun əsasını ulu öndər Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət xətti təşkil edir. Dövlət başçısı sürətlə dəyişən geosiyasi mühitdə ziddiyyətli və riskli dönəmdə xarici siyasəti səmərəli istiqamətdə inkişaf etdirir. Bunu həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atılan addımlar, həm də xarici siyasətin bütün prioritet istiqamətləri üzrə həyata keçirilən proqramlar sübut edir.

Prezident İlham Əliyevin 16 il ərzində həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə mövqeyi getdikcə möhkəmlənmişdir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Ölkəmizin xarici siyasətdə əsas götürdüyü prioritetlər də məhz xalqımızın milli mənafeyinə xidmət edir. Son 16 ildə həyata keçirilən uğurlu xarici siyasət Azərbaycanın beynəxalq aləmdəki mövqeyini xeyli möhkəmləndirib. Qərb siyasi dairələri də artıq etiraf edirlər ki, Azərbaycanın iştirakı və razılığı olmadan regionda irimiqyaslı layihələr həyata keçirmək qeyri-mümkündür. Azərbaycan dövləti bir sıra beynəlxalq təşkilatların fəal üzvüdür. Dövlətimiz BMT, ATƏT, Avropa Şurasının üzvü, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, MDB və digər beynəlxalq təşkilatların fəal iştirakçısıdır. Ölkəmiz eyni zamanda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının qurucularından biridir.

Bu illər ərzində Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlara sədrlik etməsi dövlət başçımızın düşünülmüş strategiyasının bariz nümunəsidir. Ölkəmizin AŞPA-nın Nazirlər Komitəsinə, BMT Təhlükəsizlik Şurasına iki dəfə, hazırda isə dünyada ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına sədrlik etməsi xarici siyasətimizin parlaq uğurlarıdır. Azərbaycanın nüfuzlu beynəlxalq qurumların tədbirlərinə evsahibliyi edəcəyi bu illər ərzində həyata keçirilən xarici siyasətimizin uğurlarıdır. Artıq dünyada ölkəmizə böyük inam və etimad yaranıb. 2022- ci ildə ölkəmizin daha bir möhtəşəm tədbirə – Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etməsi barədə qərar qəbul edilməsi dövlət başçımızın məqsədyönlü siyasətinə daha bir töhfəsidir.

Dövlətimizin başçısının Ermənistan --Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyi dövlət siyasətinin əsasını təşkil edib və bu gün də belədir. Prezident İlham Əliyevin Soçidə keçirilən "Valday" Klubunun sessiyası çərçivəsində çıxışı zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağla bağlı səsləndirdiyi bəyanatlara sərt münasibəti də bundan xəbər verir: "Qarabağ Azərbaycanın tarixi və ayrılmaz hissəsidir. Qarabağ Azərbaycandır və nida işarəsi".

Ölkə başçısı ən yüksək tribunalardan da bəyan edib ki, Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar.

Prezident İlham Əliyev bütün fəaliyyəti boyu bu prinsipin həyata keçirilməsinə var gücü ilə çalışıb və bir sıra uğurlar əldə edib. Beynəlxalq təşkilatlar Prezident İlham Əliyevin diplomatik müdrikliyi nəticəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sənədlər qəbul edərək münaqişənin beynəlxalq hüququn normaları çərçivəsində həll edilməsi zərurətini vurğulayıblar. Elə bugünlərdə başa çatan Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşünün yekun sənədində 120 dövlətin Ermənistanı işğalçı ölkə kimi rəsmən tanıması diplomatiyamızın daha bir uğuru olaraq yadda qaldı. Bu, Ermənistan diplomatiyasına vurulan ağır zərbədir.

## *İnsan amili*

Prezident İlham Əliyevin fəaliyyətində insan amili daim diqqət mərkəzində saxlanılıb. Bu illər ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük rəğbətlə qarşılanıb. Əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin, məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə sosial layihələrin reallaşdırılması insan amilinə verilən yüksək dəyərdir. Son 16 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilib. Məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülüb. Yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfərdən çox məcburi köçkün məskunlaşdırılıb.

Dövlətimizin başçısı ölkəyə rəhbərlik etdiyi dövrdə insan hüquq və azadlıqlarının müdafiəsini prioritet vəzifə kimi qarşıya qoyub. Prezident İlham Əliyev daim ölkəmizdə humanizm və mərhəmət prinsiplərinin əsas götürülməsi istiqamətində müxtəlif qərarlar qəbul edib. Çünki dövlətimizin başçısının fəaliyyəti ədalətə, humanizm və mərhəmət prinsiplərinə söykənir. 2003-cü ildən bu günə qədər qəbul etdiyi hər bir qərarda, imzaladığı sənədlərdə Azərbaycan Prezidentinin siyasi iradəsinin şahidi oluruq. Ölkə başçısının bir-birinin ardınca imzaladığı əfv sərəncamları dövlətimizin başçısının öz fəaliyyətində ədalət, humanizm və mərhəmət prinsiplərinə əsaslandığını göstərir.

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə Azərbaycan sabitlik, inkişaf və tərəqqi yolu ilə mətin addımlarla irəliləyir.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**